


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 114 (24.001)

*21 iyun 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikada əkinçiliyin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir



Əhalinin etibarlı ərzaq məhsulları ilə təminatında mühüm sahə olan kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən ardıcıl tədbirlər, qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası, əkin dövriyyəsinə yeni torpaqların qatılması, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, keyfiyyətli toxum növlərinin istehsalı, məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlərin və texnikaların verilməsi əkinçiliyin inkişafına əlverişli şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı" yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, mütərəqqi suvarma şəbəkələrinin qurulması və münbitliyin artırılması istiqamətində görülən işlərin davamlılığını təmin edib.

Cari ilin yanvar-may aylarında Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi başa çatdırılıb, Araz Su Anbarından qidalanan nasos stansiyasının və təzyiqli boru xəttinin, Babək rayonunun Çeşməbasar və Güznüt kəndləri ərazilərində qapalı suvarma və kollektor-drenaj şəbəkəsinin, Nehrəm qəsəbəsi, Şahbuz rayonunun Külüs, Mahmudoba, Nursu kəndləri ərazilərində qapalı suvarma şəbəkələrinin tikintisi davam etdirilib.

Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində açıq drenaj kanalının çəkilişi başa çatdırılıb, Şərur, Babək və Sədərək rayonlarında kollektor-drenaj şəbəkələrinin təmizlənməsi işləri davam etdirilir.

Şərur rayonunda "Dizə", Babək rayonunda "Naxçıvançay", "Sirab", "Payız" və "Qahab" selovlarının hər birində bir istiqamətləndirici bəndin tikintisi başa çatdırılıb, Şərur rayonunda "Axura" selovunda istiqamətləndirici bəndin tikintisi davam etdirilir.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq muxtar respublikada 2022-ci ilin məhsulu üçün ümumi əkin sahəsi 64 min 259 hektar təşkil edir ki, bu da 2018-ci illə müqayisədə 2324 hektar çoxdur.

Ümumi əkin sahəsinin 32567 hektarını və ya 50,7 faizini payızlıq əkin, 24244 hektarını və ya 37,7 faizini yazlıq əkin, 7448 hektarını və ya 11,6 faizini əvvəlki illərin çoxillik otları təşkil edib.

2022-ci ilin məhsulu üçün qeydə alınmış əkin sahəsinin 34444 hektarını və ya 53,6 faizini dənli və dənli-paxlalılar (qarğıdalısız), 1348 hektarını və ya 2,1 faizini dən üçün qarğıdalı, 190 hektarını və ya 0,3 faizini dən üçün günəbaxan, 74 hektarını və ya 0,1 faizini tütün, 3481 hektarını və ya 5,4 faizini kartof, 6215 hektarını və ya 9,7 faizini tərəvəz, 2489 hektarını və ya 3,9 faizini ərzaq üçün bostan bitkiləri, 8570 hektarını və ya 13,3 faizini cari ilin çoxillik və birillik otları, 7448 hektarını və ya 11,6 faizini isə əvvəlki illərin çoxillik otları təşkil edib.

*2022-ci ilin məhsulu üçün əkin sahələrinin strukturu*




Ümumi əkin sahəsinin 2248 hektarı və ya 3,5 faizi Naxçıvan şəhərinin, 16234 hektarı və ya 25,3 faizi Şərur, 16172 hektarı və ya 25,2 faizi Babək, 3937 hektarı və ya 6,1 faizi Ordubad, 8213 hektarı və ya 12,8 faizi Culfa, 10158 hektarı və ya 15,8 faizi Kəngərli, 2769 hektarı və ya 4,3 faizi Şahbuz, 4528 hektarı və ya 7 faizi Sədərək rayonlarının payına düşüb.

Muxtar respublikada torpaq mülkiyyətçilərinin məhsuldar və yerli iqlim şəraitinə uyğun toxumlarla təminatı sahəsində də ardıcıl tədbirlər görülür. "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin yaradılması muxtar respublikada toxuma



olan tələbatın yerli istehsal hesabına ödənilməsi və bu sahədə dövlət nəzarətinin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Kənd təsərrüfatının davamlı inkişafı torpaq mülkiyyətçilərinin və fermerlərin müasir kənd təsərrüfatı texnika və texnoloji avadanlıqları ilə təminatını zəruri edir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2022-ci ilin yanvar-may aylarında 93 müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınıb, 71 texnika lizinq və nağd yolla satılıb, məhsul istehsalçıları 8 min tona yaxın mineral gübrə ilə təmin olunub.

Əkinçiliyin inkişafı istiqamətində təsərrüfat subyektlərinə 2022-ci ilin yanvar-may aylarında 849 min 100 manat kredit verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çoxdur.

Aqrar sahənin əhəmiyyətini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Kənd təsərrüfatı iqtisadiyyatın lokomotividir. Hər bir ölkədə inkişafın əsas hədəfi ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Muxtar respublikada aqrar sahədə görülən işlər həyata keçirilən islahatlar da bu məqsədə hesablanmışdır. Qarşıdakı dövrdə də bu sahədəki fəaliyyət davam etdirilməli, məhsuldarlığın artırılması sahəsində elmi-təcrübi tədbirlər görülməlidir".***

Muxtar respublikada əkinəyararlı torpaq sahələrindən düzgün istifadə olunması, müasir suvarma sistemlərinin qurulması, fermerlərin texnika və avadanlıqlarla təmin olunması bitkiçiliyin inkişafına və ümumi iqtisadi potensialın güclənməsinə zəmin yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Torpaqların su təminatı yaxşılaşdırılır



Naxçıvan Muxtar Respublikasında 2022-ci ilin yaz suvarma mövsümü artıq başa çatmışdır. Cəmiyyətin tabe təşkilatları tərəfindən ilin əvvəlindən tərtib olunmuş təmir qrafikinə uyğun olaraq may ayı ərzində kanallarda, nasos stansiyalarında, təzyiqli boru xətlərində və digər hidrotexniki qurğularda cari təmir işlərinin aparılması və su anbarlarına suyun yığılması işləri davam etdirilmişdir. Ötən dövrdə su istifadəçilərinə 54,37 milyon kubmetr su verilmiş, bunun müqabilində 45 min 959 hektar torpaq sahəsi suvarılmışdır. Hazırda sututarlarda 143,95 milyon kubmetr su ehtiyatı toplanmışdır.

Hesabat ayında 2,65 kilometr istiqamətləndirici bənd tikilmiş, 14,35 kilometr beton və torpaq kanal, 20,92 kilometr ara arxlar, 0,2 kilometr kollektor lildən təmizlənmiş, 0,14 kilometr içməli su, 0,15 kilometr kanalizasiya xətti, 0,9 kilometr suvarma, 2,4 kilometr təzyiqli boru xətti çəkilmiş, 0,05 kilometr yeni kaptaj tikilmiş, 0,04 kilometr qapalı drenaj xətti quraşdırılmışdır. 2,55 kilometr mövcud içməli su, 0,42 kilometr kanalizasiya xətlərində, 8,43 kilometr suvarma, 1,99 kilometr təzyiqli boru xətlərində, 0,67 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır. Torpaq sahələrinin su ilə təminatının yaxşılaşdırılması və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə 0,9 kilometr paylayıcı xətlər çəkilmiş, diametri 200 millimetr olan 3,23 kilometr uzunluğunda plastik borular qaynaq edilmiş və suvarma boru xətlərinin çəkilişi üçün qazma işləri davam etdirilmişdir. Bu işlərin davamı olaraq Çeşməbasar və Güznüt kəndləri ərazisində 240 hektar sahədə qapalı suvarma və kollektor-drenaj şəbəkəsinin tikintisinə başlanılmışdır. Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 3200 hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi üçün hazırlıq işlərinə başlanılmışdır.

Cari ilin may ayı ərzində 5 kəhrizdə təmir-bərpa işləri davam etdirilmiş, quyularda 50 metr təmizləmə işləri aparılmış, 32 metr çalağərdan hörgü işləri yerinə yetirilmiş, 561 metr kürə lildən təmizlənmiş, 58 metr saybənd hörülmüşdür. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 8-nə yeni nasos quraşdırılmaqla 104-ü təmir olunmuşdur. Bundan əlavə, Kəngərli rayonunda Qabıllı kəndi ərazisində "Qabıllı Quşçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətini içməli və təsərrüfat suyu ilə təmin etmək məqsədilə 1 subartezian quyusunun, eləcə də "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Kəngərli rayonunda 1 subartezian quyusunun tikintisi başa çatdırılmışdır. Həmçinin Culfa rayonunun Yaycı kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə su təchizatı şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 8,15 kilometr içməli su xətti çəkilmiş, 10 evin su xəttinə birləşməsi aparılmış və 854 sayğac quraşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

*Muxtar respublikada daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən may ayında da diqqətdə saxlanılmışdır.*

## Ötən ay 514 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"na uyğun olaraq Kəngərli rayonunun Böyükdüz və Şahbuz rayonunun Ağbulaq kəndlərində bələdiyyə sədrləri, ailə təsərrüfatı başçıları, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir.

Muxtar respublikanın bütün ərazi vahidləri üzrə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə əkin dövriyyəsindən kənarda qalan, istifadə olunmayan əkinəyararlı torpaq sahələrinin monitorinqi aparılmış və uçotu dəqiqləşdirilmişdir. Torpaqların elektron kadastr uçotu informasiya sistemində dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin uçotunun dəqiqləşdirilməsi məqsədilə Sədərək rayon inzibati ərazi vahidi daxilində bələdiyyələr üzrə kənd təsərrüfatı yerləri (uqodiyaları), nəqliyyat, kommunikasiya xətləri, kanal və kollektorlar, mövcud meşə zolaqlarının əhatə etdiyi ərazilər müəyyənləşdirilmiş və elektron kadastr xəritəsində uçotu aparılmışdır. Babək rayonu üzrə kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranmış hüquqlara dair məlumatların daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilməsi yekunlaşdırılmış, ay ərzində 1232 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilmişdir.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə hesabat ayında Şərur rayonunun Axura, Şahbuz rayonunun Türkeş, Kiçikoba, Daylaqlı, Mərəlik kəndlərinin və Kəngərli rayonunun bütün yaşayış məntəqələrinin ərazisində müəyyən edilmiş qanun pozuntularının aradan qaldırılması istiqamətində iş aparılmışdır. Ötən ay 514 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 443 texniki sənəd hazırlanmış, yeni yaranmış 29 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 83 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində vətəndaşın müraciətinə baxılmış, 8 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilmiş, təsərrüfat fəaliyyəti ilə əlaqədar 2 ailə təsərrüfatının icarəsinə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

# I Beynəlxalq Tibbi Forum yüksək təşkilatçılıq, elmi müzakirələr,

## Tibb təhsili sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə

*I Beynəlxalq Tibbi Forum çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə İstanbul Yeditəpə Universiteti və Moskva Dövlət Tibb Universitetinin Bakı filialı ilə tərəfdaşlığın əsası qoyulub.*

TürkiyəninYeditəpə Universiteti nümayəndə heyətinin iştirakı ilə bu münasibətlə keçirilən görüşdə universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb, onları universitetdə görməkdən məmnunluğunu bildirib. Rektor rəhbərlik etdiyi ali təhsil ocağının kadr potensialı, professor-müəllim heyətinin malik olduğu elmi baza, maddi-texniki imkanlar, beynəlxalq əlaqələri haqqında məlumat verib. Qeyd olunub ki, əməkdaşlıq universitetlər arasında bağlanılmış müqavilələr əsasında qurulur, müəllim və tələbə mübadiləsi, müştərək elmi araşdırmalar, müəllimlərin ixtisasartırması, informasiya və elmi-metodik ədəbiyyat mübadiləsi kimi sahələri əhatə edir. Diqqətə çatdırılıb ki, universitetin beynəlxalq əlaqələrində Türkiyə universitetlərinin xüsusi rolu vardır. Ali təhsil ocağı Türkiyənin 130-dan çox universiteti ilə beynəlxalq əməkdaşlığa malikdir. Rektor artıq bu tədris ilindən etibarən Yaponiya universitetləri ilə də beynəlxalq əlaqələrin qurulduğunu diqqətə çatdırıb. Bildirilib ki, universitet elmi-tədqiqat fəaliyyətinə xüsusi diqqət yetirir və professor-müəllim heyətinin beynəlxalq indeksli nəşrlərdə elmi məqalələrinin dərc olunması məqsədilə nüfuzlu jurnallarla əməkdaşlığa üstünlük verilir.





Yeditəpə Universitetinin rektoru, professor Canan Aykut Bingöl ilk dəfədir, Naxçıvan Dövlət Universitetində olmaqdan məmnunluğunu bildirib. Qeyd edilib ki, 1996-cı ildə əsası qoyulan universitet bir çox sahədə öncül olmaqla bərabər, ABŞ, Kanada, Rusiya, Cənubi Amerika başda olmaq üzrə dünyanın 700-dən çox universiteti ilə beynəlxalq əməkdaşlığa malikdir. Vurğulanıb ki, 13 fakültə ilə texniki sahədə kadr hazırlığını həyata keçirən universitetdə Tibb, İqtisadiyyat, Mühəndislik, Hüquq, Ədəbiyyat və digər ixtisaslar üzrə müasir akademik proqramlara uyğun ingilis dilində tədris həyata keçirilir. Professor diqqətə çatdırıb ki, rəhbərlik etdiyi ali təhsil ocağı Türkiyədə Günəş enerjisindən istifadə edərək öz enerjisini təmin edən ilk universitetdir.

I Beynəlxalq Tibbi Forum çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə Moskva Dövlət Tibb Universitetinin Bakı filialı arasında da əməkdaşlıq müqaviləsi imzalanıb. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ikitərəfli görüşdə Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyevi və nümayəndə heyətini salamlayıb, onları universitetdə görməkdən məmnunluğunu bildirib. Diqqətə çatdırılıb ki, artıq 55 ildir ki, fəaliyyət göstərən universitetə ilk dəfə ulu öndər Heydər Əliyevin 2002-ci il 12 iyun tarixli Sərəncamı ilə yüksək özünüidarə statusu verilib. Rektor təhsil ocağının malik olduğu imkanlar, fakültələr, tədris olunan ixtisaslar və beynəlxalq əlaqələr haqqında geniş məlumat verib. Xarici universitetlərlə ikili diplom layihəsi, tələbə-müəllim mobilliyinin ali təhsil ocağının beynəlxalq əlaqələr sistemində mühüm rol oynadığı diqqətə çatdırılıb. Qeyd edilib ki, ali təhsil ocağının Web of science indeks bazalarına malik jurnallarla əməkdaşlığa başlaması gələcəkdə professor-müəllim heyətinin öz elmi məqalələrinin nüfuzlu jurnallarda nəşri üçün əhəmiyyətli rol oynayacaq. Məlumat verilib ki, Tibb fakültəsində təhsil alan tələbələr universitet xəstəxanasında təcrübə keçməklə bərabər, muxtar respublika xəstəxanalarından klinik baza kimi istifadə edirlər. Gələcəyin həkimləri Türkiyə universitetləri ilə bağladığımız müqavilələrə əsasən orada təcrübə keçir, qardaş ölkə universitetlərinin təcrübəsindən yararlanırlar.

Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev bu cür mötəbər foruma yüksək səviyyədə ev sahibliyinə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib, ali təhsil ocağının kollektivini bu münasibətlə təbrik edib. Rektor rəhbəri olduğu universitetin əsasının 15 may 2015-ci ildə qoyulduğunu bildirib. Vurğulanıb ki, filialın yaradılması haqqında qərar Prezident cənab İlham Əliyevin imzaladığı müvafiq Sərəncam əsasında qəbul edilib və ilk tədris ilində filialda dövlət sifarişi əsasında 100 tələbə Müalicə işi ixtisası üzrə təhsil almağa başlayıb. Filialda tədris prosesi Moskva Dövlət Tibb Universitetinin tədris plan və proqramları əsasında həmin ali məktəbin professor-müəllim heyəti tərəfindən həyata keçirilir. Rektor gələcək həkimlərin praktik vərdişlərinin yaxşılaşdırılması və mütəxəssislərin təkmilləşdirilməsi məqsədilə filialın bazasında yaradılmış Simulyasiya Mərkəzinin fəaliyyətindən danışıb.

Professor muxtar respublika xəstəxanalarında apardığı müayinə üsullarından danışaraq Naxçıvan səhiyyə sistemi üçün mövcud avadanlıqların yüksək səviyyədə olduğunu diqqətə çatdırıb, həkimlərin də yüksək səy və həvəslə öyrənməyə meyilli olduqları vurğulanıb.

Hər iki görüşün sonunda tərəfdaşlıq məsələləri müzakirə olunub, əməkdaşlıq müqavilələri imzalanıb. Əməkdaşlıq müqavilələrində birgə layihələrin həyata keçirilməsinə dəstək, məlumatın təqdim edilməsi və mübadiləsi, elmi-təcrübi konfransların, forumların, seminarların təşkili və onlarla birgə iştirak, ictimai təşkilatlarla və ekspert cəmiyyəti ilə qarşılıqlı əlaqə, təcrübəyə və ya təcrübəyə göndərilmə və qəbul, digər əməkdaşlıq növləri üzrə məsələlər öz əksini tapıb.

Sonda universitet rektorları qarşılıqlı hədiyyələr təqdim ediblər. Yeditəpə Universitetinin rektoru, professor Canan Aykut Bingöl universitetin xatirə kitabına ürək sözlərini yazıb.

Qeyd edək ki, I Beynəlxalq Tibbi Forum çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Tibb Universiteti və Türkiyənin Qaradəniz Texniki Universiteti arasında da əməkdaşlıq müqavilələri imzalanıb. Yeni tərəfdaşlıqlar muxtar respublikada ali təhsilli tibbi kadr hazırlığı, Naxçıvanda səhiyyənin yüksəkixtisaslı yerli mütəxəssislər ilə təminatı, Naxçıvan Dövlət Universitetində bu sahədə tədrisin keyfiyyətinin yüksəldilməsi, dünya tibb elminin yeniliklərinin mənimsənilməsi və tətbiqi baxımından öz töhfəsini verəcək.

## Bölmə iclaslarında tibb elminin müxtəlif sahələrinə dair aktual elmi mühazirələr dinlənilib

*Muxtar respublikada ilk dəfə keçirilən, dünyanın 7 ölkəsindən 350-dən artıq tibb sahəsi üzrə elm adamının qonaq olduğu I Beynəlxalq Tibbi Forumda 4 bölmə üzrə tibb elminin müxtəlif sahələrinə dair aktual mövzularda elmi mühazirələr dinlənilib, mövzular üzrə suallar cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb. Bölmə iclaslarında muxtar respublika səhiyyə sisteminin müvafiq həkimləri, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin ixtisaslı həkim, rezident və yuxarı kurs tələbələri iştirak ediblər.*

Naxçıvan Dövlət Universitetinin A bölməsində Laparoskopik cərrahiyyə və Laparoskopik kolorektal cərrahiyyə kursları, Ginekologiya, Bariatrik metabolik cərrahiyyə, Cərrahiyyə – III, Pankreas xəstəlikləri, Plastik estetik və rekonstruktiv cərrahiyyə, Endokrinologiya sahələri üzrə 70-ə yaxın çıxış olub.

Forumun ilk günündə "Laparoskopik cərrahiyyə kursu" adlı bölmədə moderatorlar professorlar Cavid Avcı, Ömər Alabaz, dosent Müşviq Həsənovun rəhbərliyi altında 10, "Laparoskopik kolorektal cərrahiyyə kursu" adlı bölmədə moderatorlar professorlar Ləvənt Avtan, Mətin Ərtəm, Yuri Starkovun rəhbərliyi ilə 9, "Ginekologiya" adı altında professorlar Erkut Attar, Cəmilə Qurbanova, İslam Mahalov, tibb üzrə fəlsəfə doktoru Öndər Tulumbacının moderator olduğu bölmədə 8, Bariatrik metabolik cərrahiyyə bölməsində professorlar Mustafa Taşkın, Ləvənt Avtan, tibb üzrə fəlsəfə doktorları Tariyel Ömərov, Elçin Abdinov moderatorların təşkilatçılığı ilə 11 mühazirə dinlənilib.





Forumun II günündə isə professorlar Qalib Qarayev, Fariz Camalov, Novruz Hacıyevin rəhbərliyi ilə, tibb üzrə fəlsəfə doktoru Anar Namazovun moderatorluq etdiyi Cərrahiyyə – III adlı bölmədə 10, professorlar Dilək Oğuz və İrfan Korukun rəhbərliyi altında professorlar Vaqif Qələndər, Mismil Muradov və tibb üzrə fəlsəfə doktoru Dilqəm Məhərrəmovun moderator olduğu bölmədə 9, dosent Sərdar Əliyev, həkimlər Samir Şükürov, Mətanət Səfərova, tibb üzrə fəlsəfə doktoru Nərgiz Əliyevanın rəhbərlik etdikləri bölmədə mövzular üzrə 9 çıxış dinlənilib.

Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyasının təşkilatçılığı ilə Azərbaycan, ingilis və rus dillərində keçirilən forum Azərbaycan tarixində təşkil olunan ilk irimiqyaslı tibbi forumdur.

**Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi**

## Yüksəkixtisaslı həkimlər Naxçıvanın iri səhiyyə müəssisələrində növbəti müayinə və müalicələr aparıblar



Naxçıvanda Birinci Beynəlxalq Tibbi Forumda iştirak edən yüksəkixtisaslı həkimlər muxtar respublikada növbəti müayinə və müalicələr aparıblar. Azərbaycan Tibb Universitetinin professor həkim heyəti Naxçıvan Muxtar Respublika Xəstəxanasında olub, pasiyentlərlə söhbətlər aparıb, onları müayinə və müalicəyə cəlb ediblər. Üz-çənə cərrahı, professor Çingiz Rəhimov çənədə yayılmış şişlə əlaqədar xəstəxanaya müraciət edənləri müayinə edib, tibbi tövsiyələr verib.



Tanınmış həkim-oftalmoloq, tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin professoru, Əməkdar elm xadimi, Əməkdar həkim Paşa Qəlbinur və rəhbərlik etdiyi həkim heyəti də rezidentlərlə birgə Naxçıvan Muxtar Respublika Xəstəxanasında oftalmoloji müayinələr aparıb. Müayinələrdə əhalinin müxtəlif yaş qrupundan olan sakinlərə yüksək tibbi xidmət göstərilib.

Türkiyəli həkim-mütəxəssislər isə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində olub, pasiyentlərlə maarifləndirici söhbətlər aparıblar. Xəstələr ginekoloji-konsultativ tibbi müayinələrə cəlb edilib, onlara müalicələr təyin olunub.

Azərbaycan Tibb Universitetinin bir qrup həkim-mütəxəssisi Naxçıvan Diaqnostika Müalicə Mərkəzində müxtəlif müayinələr aparıb. Qalxanabənzər vəzi xəstəliklərindən əziyyət çəkən pasiyentlər müayinədən keçirilib və tibbi tövsiyələr verilib. Həmçinin mərkəzdə plastik və estetik cərrah həkimləri də müxtəlif müayinələr aparıblar.

## Forum iştirakçıları muxtar respublikanın gəzməli yerləri ilə tanış olublar

Beynəlxalq Forum iştirakçılarının növbəti gəzintisi təşkil olunub. İlk olaraq iştirakçılar Duzdağ Fizioterapiya Mərkəzində olublar. Mərkəzlə tanışlıq zamanı məlumat verilib ki, 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıq və ləvazimatlarla təchiz olunub. Həkimlərin xüsusi marağına səbəb olan Duzdağ Fizioterapiya Mərkəzi qonaqlarda yüksək təəssürat yaradıb.





Gəzinti Möminə xatın türbəsi, Xan Sarayı və Açıq Səma Altında Muzey Kompleksi ilə tanışlıqla davam edib. Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan türbə, qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr qonaqların diqqətini çəkib. Möminə xatın türbəsi ilə tanışlıq zamanı bildirilib ki, İslam memarlığında ən uca və incə kompozisiyalı türbələrdən olan Möminə xatın türbəsi 1186-cı ildə tikilib. Xalqın yaddaşında zaman-zaman "Atabəy günbəzi" adı ilə qalan abidənin baş tağında kufi xətti ilə bu sözlər yazılıb: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Qonaqlar Batabat yaylağında da olublar. Buranın ecazkar gözəlliyi, füsunkar təbiəti onlara böyük mənəvi zövq bəxş edib. Gəzinti "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə sona çatıb. Əshabi-kəhflə bağlı rəvayətləri maraqla dinləyən qonaqlar ziyarətgahı heyranlıqla gəziblər.

**Xəbərlər şöbəsi**

# təcrübə mübadiləsi şəraitində keçdi, rəngarəng tədbirlərlə yadda qaldı

## “Tibbi forumun Türk dünyasının qapısı Naxçıvanda keçirilməsi, burada gördüklərimiz xoş təəssüratlarla qayıtmağımıza səbəb olacaq”

*I Beynəlxalq Tibbi Forum iştirakçılarının təəssüratları ilə qəzetimizin oxucularını tanış edirik:*



***Cavid Avcı – İstanbul Universiteti Davamlı Tibbi Təhsil və Araşdırma Mərkəzi qurucusu, Endoskopik Laparoskopik Cərrahi Dərnəyinin fəxri sədri, ümumi cərrah:*** – Təyyarədən enən kimi gözəl bir mənzərə ilə qarşılaşır insan, Naxçıvana ayaq basanda sanki bir Avropa şəhərində hiss edirsən özünü. Təbiəti çox gözəl, insanları səmimidir. Tədbirin təşkilatçılığı yüksək səviyyədədir. Elm ocağında təşkil edilməsi isə daha da gözəldir. Burada təhsil alan gələcəyin həkimlərinin forumun iştirakçısı olan və öz sahəsində mütəxəssis sayılan həkimlərin mühazirələrini dinləməsi gələcəkdə onların yaxşı nəticələr əldə etmələrinə zəmin yaradır. Gənc həkimlərin forum çərçivəsində keçirilən iclaslara marağı isə təqdirəlayiqdir. Birinci Beynəlxalq Tibbi Forumun Türk dünyasının qapısı olan Naxçıvanda keçirilməsi və burada üç gün ərzində gördüklərimiz Türkiyəyə xoş təəssüratlarla qayıtmağımıza səbəb olacaq. Onu xüsusilə qeyd etmək istərdim ki, Türk dünyasının böyük liderlərindən olan Heydər Əliyevin abidəsini və dahi şəxsiyyətin muzeyini ziyarət etmək, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşdə olmaqdan böyük şərəf və məmnunluq duydum.



***Müşviq Həsənov – Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyası İctimai Birliyinin sədri:*** –Təəssüratlarım böyükdür. Azərbaycanın ayrılmaz hissəsi, Şərqin qapısı olan, mənim ürəkdən bağlı olduğum Naxçıvanda belə bir tədbirin keçirilməsi möhtəşəmdir. Doğrusu, biz bir neçə ildir, buna hazırlaşırıq. Amma mən sizə açıq deyim, təsəvvür etmirdim ki, tədbir bu şəkildə baş tutacaq. Amma mənim xəyallarımda canlandırdığım o tədbir, həqiqətən, baş tutdu. Bilirsiniz, forum sanki bir neçə konqresin birləşməsi idi. Təbabətin bütün sahələri bu forumda əhatə olunub. Forumda panellərdə olan müzakirələr çox qızğın getdi, onların insanlar üçün, həkimlərimiz üçün çox faydalı olacağını ümid edirik. Məqsədimiz də o idi ki, xaricdən, qardaş Türkiyədən çoxsaylı alimlər, elm adamları bizim Azərbaycanın, eyni zamanda Qazaxıstan, Özbəkistan, Rusiya və Almaniyadan olan elm adamlarının müştərək fikir mübadiləsinə şərait yaratsın. İnanıram ki, qarşılıqlı fikir mübadiləsi həm Naxçıvandan olan həkimlərə, həm də ölkəmizin həkimlərinə çox faydalı olacaq. Ulu öndərimizin doğma Vətənində olmaqdan sevindik. Xüsusilə Ali Məclisin Sədrinə, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevə minnətdarlığımı bildirirəm. Ali Məclis Sədrinin diqqət və qayğısı, siyasi dəstəyi nəticəsində bu forum möhtəşəm keçdi. Buna ürəkdən sevinirəm.



***Yuri Starkov – Rusiya Cərrahlar Cəmiyyətinin sədri, professor:*** – Naxçıvan Muxtar Respublikasına ilk dəfə belə bir möhtəşəm tədbir üçün gəlməkdən məmnunluq duyuram. Azərbaycanın mühüm strateji əhəmiyyətə malik bir diyarı olan Naxçıvan çox inkişaf edib. Burada elmin bir çox sahələrinin inkişaf etdirilməsi üçün əsaslı potensial formalaşıb. Uzun illər bir çox tibbi forumların həm təşkilatçısı, həm də iştirakçısı olaraq deyə bilərəm ki, Naxçıvanda tibbi forum ilk dəfə keçirilməsinə baxmayaraq, çox yüksək səviyyədə təşkil edilib. Universitetlə tanışlığımız da yaddaqalan oldu. Burada dünyanın bir çox yerlərindən gələn tələbələr təhsil alırlar. Bu, Naxçıvan kimi bir diyar üçün böyük nailiyyətdir. Tibb fakültəsində təhsil alan tələbələr inanıram ki, bu tibbi forumdan yetərincə yararlana biləcəklər. Naxçıvan həm də tarixi abidələr diyarıdır. Bir neçə tarixi abidə və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olduq. Duzdağ çox maraqlı yerdir, havası çox gözəldir, müalicəvi effekti ilə dünyada nadir səhiyyə ocaqlarındandır. Möminə xatın türbəsi, Xan sarayı unikal tarixi abidələrdir. Əshabi-kəhf çox sehrli və gözəldir, təbiəti insanı valeh edir. Səmavi dinlərdən olan İslama aid müqəddəs kitabda adıçəkilən bu məkanda olmaq insana rahatlıq gətirir. Bir sözlə, möhtəşəmdir. Hava çox isti olmasına baxmayaraq, təmizdir. İnsanları səmimi, mədəni, mətbəxi isə möhtəşəmdir. Qonaqpərvərlik yüksək səviyyədədir. Təşkilatçılara minnətdarlığımı bildirirəm.



***Dilək Oğuz – Türkiyə Qastroenterologiya Dərnəyinin sədri, professor:*** – Burada iştirakımdan çox şadam, çünki bu, çox əhəmiyyətli bir forumdur. Daha əvvəl forum proqramının təşkilatçıları ilə danışanda aydın oldu ki, bu foruma Türkiyədən, başqa ölkələrdən, eləcə də Azərbaycandan, Naxçıvandan tibbin müxtəlif sahələrindən çoxlu alim və həkimlər gəlib. Bu tip forumlar, yığıncaqlar iştirakçılar üçün çox əhəmiyyətlidir. Birincisi, onlara öz elmi biliklərini bir-biri ilə bölüşməyə imkan verir, ikincisi, hər kəs öz sahəsində daha nələr edə bilər kimi baxış bucağını genişləndirir. Naxçıvan Dövlət Universiteti də bu beynəlxalq forumun əsas dəstəkçisidir. Görünür ki, bu forumun təşkilinə dövlət ciddi diqqət və dəstək göstərib. Bu görüş mənim üçün böyük önəm daşıyır. Burada Türkiyə Qastroenterologiya Dərnəyini təmsil edirəm, mənimlə birgə dərnəkdən 12 nəfər də iştirak edir. Eyni zamanda bölmə iclasında “Mədəaltı vəzi xəstəlikləri” mövzusunda çıxışım oldu. Bu, çox gözəl elmi görüş idi. Bunun üçün böyük əmək və zəhmət sərf edilib. Mən, təxminən, 10 il əvvəl Naxçıvana gəlmişəm. Çox gözəl yerdir, unikal xüsusiyyətləri var. Duzdağı və Batabatı görmüşdüm. Şəhər turlarına çıxdım. Naxçıvanı, xüsusilə şəhərin özünə, tarixinə göstərilən qayğını sevdim. Bu, indiki dövrdə çox vacibdir. Binalara, lövhələrə, küçələrə, ağaclara xüsusi diqqət yetirilib, baxımlılıq, təmizlik Naxçıvana məxsus böyük üstünlükdür.



***Sardar Sizdikkhodjaev – Daşkənd Tibb Akademiyasının professoru:*** (Özbəkistan) – Naxçıvan çox gözəl bir şəhərdir. Çox səliqəli və tarixi məkandır. İlk dəfə keçirilən Beynəlxalq Tibbi Forum çox maraqlı keçdi. İxtisasca neyrocərraham. İclaslardakı çıxışlarımızda da sinir sistemi xəstəlikləri və onların müalicə və müayinəsi barədə ətraflı məlumatlar verdim. Bu foruma müxtəlif ölkələrdən qatılan həkimlər və alimlərlə söhbət etmək, onlarla müxtəlif tibbi sahələrdə fikir və düşüncələrimizi bölüşmək imkanı əldə etdik. Belə bir forumun iştirakçısı olmaq bizim üçün böyük fəxr idi. Göstərilən diqqətə görə təşkilatçılara minnətdarlığımızı bildiririk.



***Mismil Muradov – Qazaxıstan Milli Elmi Cərrahiyyə Mərkəzinin cərrahı, professor:*** – Əvvəlcə belə bir möhtəşəm tədbirə dəvət aldığım üçün təşkilatçılara minnətdarlığımı bildirirəm. Tədbir çox yüksək səviyyədə təşkil olunub. Belə bir Tibbi Forumun keçirilməsi biz həkimlər üçün müəyyən məsələlərin müzakirəsi baxımından çox əhəmiyyətli oldu. Mən bir çox ölkələrdə bu cür konfranslarda, simpoziumlarda iştirak etmişəm, tam səmimiyyətimlə etiraf edim ki, belə qonaqpərvərliyi heç yerdə görməmişəm. Onu da deyim ki, Naxçıvan çox gözəl şəhərdir. Sakit, təmiz, arxitektura cəhətdən heyranedici, xüsusilə də milli koloritin ön yerdə olması çox xoşuma gəldi. Səfər proqramında vaxt məhdud olsa da, bir neçə gəzməli-görməli yerlərlə yanaşı, Duzdağ Müalicə Mərkəzində də olduq. Deyərdim ki, Duzdağ Naxçıvanın ən möcüzəli yerlərindən biridir. Tədbir iştirakçıları ilə bu ərazini çox maraqla izlədik. Son olaraq isə onu demək istərdim ki, yerli mətbuat orqanlarına da tədbirin keçirilməsinə, eyni zamanda biz həkimlərin fikirlərinə diqqət ayırdıqlarına və işıqlandırdıqlarına görə təşəkkürümü bildirirəm.

***Ləvənt Avtan – İstanbul Tibb Fakültəsinin Ümumi cərrahiyyə şöbəsinin həkimi:*** – İlk dəfə təşkil edilən belə bir forumun Naxçıvan kimi gözəl bir şəhərdə keçirilməsindən məmnunluq duyuram. Bu forum qardaş türk ölkələri arasındakı birliyi bir daha nümayiş etdirməklə yanaşı, həm də ortaq elmi araşdırmalar üçün mühüm bir tədbirdir. Naxçıvan Dövlət Universiteti ilə Türkiyə Respublikasının ali təhsil ocaqları arasındakı əməkdaşlığı yaxından izləyirəm. Onu da deyim ki, təhsil ocaqları arasında imzalanan əməkdaşlıq müqavilələri çox əhəmiyyətlidir. Tələbələrin və həkimlərin təcrübəsi artır və onlar öz ixtisasları üzrə yeni biliklər öyrənirlər.





***Paşa Qəlbinur – tibb elmləri doktoru, oftalmoloq, professor:*** – Naxçıvana son səfərim, təqribən, 30 il bundan öncə olub. Bu isə Naxçıvana ikinci gəlişimdir. Deyərdim ki, 30 ildə Naxçıvanda möhtəşəm dəyişikliklər baş verib. Bu günün Naxçıvanı dünyanın bir çox inkişaf etmiş şəhərlərindən heç də geridə qalmır. Bir neçə gündə həkim heyəti ilə birlikdə Naxçıvanı qismən gəzdik, bir çox görməli yerlərdə olduq. Yolboyu füsunkar təbiət mənzərələri ilə qarşılaşdıq. Görünür, burada insanla təbiət qırılmaz tellərlə bir-birinə bağlıdır ki, bu da təbiətin qorunmasına, ətraf mühitin təmizliyinə öz təsirini göstərir. Getdiyimiz hər yerdə təmizliyin, abadlığın şahidi olduq. Fürsətdən istifadə edib onu da qəzetiniz vasitəsilə bildirmək istəyirəm ki, naxçıvanlılar hər zaman yüksək mədəniyyətə malik insanlar olub, elmə, biliyə böyük önəm verib. Naxçıvanlı həkimlərlə təcrübə mübadilələri, müzakirələr bunu deməyə əsas verir. Bir təsadüfi kimi deyə bilərəm ki, I Beynəlxalq Tibbi Forum çox yüksək səviyyədə təşkil olunub. Burada dünya üzrə tanınmış alimlər, professorlar iştirak edirlər. Forumda tibbin ən son nailiyyətlərinə dair müzakirələr aparılır, təqdimatlar olur. Bu da yerli həkimlər üçün böyük əhəmiyyət kəsb edir. Səfər çərçivəsində Naxçıvan Muxtar Respublika Xəstəxanasında müayinələr də apardıq. Burada fəaliyyət göstərən həkimlərdən bir neçəsi mənim tələbəm olub. Bu məni qəlbən sevindirdi ki, bu gün onların hər biri yüksəkixtisaslı, müasir biliklərə malik həkimlərdir. Onlarla birlikdə 30-a yaxın xəstəni müayinə etdik. Onu da qeyd edim ki, xəstəxanada yüksək şərait yaradılıb, bütün lazımi avadanlıqlarla təchiz olunub. Görünür ki, Naxçıvanda səhiyyə sisteminin təkmilləşdirilməsi işinə xüsusi önəm verilir.



***Rəşad Şolan – Respublika Diaqnostika Mərkəzinin Böyrək xəstəlikləri və transplantologiya şöbəsinin rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının Fiziologiya İnstitutunun İmmunofiziologiya və eksperimental transplantologiya laboratoriyasının müdiri, Böyrək Transplantasiyası üzrə Mütəxəssislər Assosiasiyası İdarə Heyətinin sədri:*** – Məhz Naxçıvanda birinci beynəlxalq forumun keçirilməsi Azərbaycan səhiyyəsi tarixində böyük hadisədir. Bu forumun özəlliyi tibb elminin bütün sahələrini əhatə etməsində, universitetlərlə əməkdaşlıq müqavilələri imzalanmasındadır. Bu müqavilələr gələcəkdə elmi və tibbi klinik sferada əməkdaşlığa yol açacaq. Çoxlu sayda dərnəklər, ictimai birliklər, Azərbaycanın tanınmış tibb adamları bu foruma öz töhfələrini verdilər.

Naxçıvan Azərbaycanın özəl bir bölgəsidir və Naxçıvanın hər daşı, kəsəyi bir tarixdir. Biz xarici qonaqlarla gəzərkən hər biri istər dini-mədəni ziyarətgahı, istərsə də muzeyləri böyük heyranlıqla seyr edirdi. Əlincə qalası, Əshabi-kəhf ziyarətgahı, Duzdağ Fizioterapiya Mərkəzi kimi yerlərin hər biri bir tarixdir. Belə toplantılarla tarixi təbliğ etmək lazımdır. Bu, həmçinin Naxçıvana turistlərin marağını artıracaq. Çünki avropalılar tarixə, tarixi abidələrə meyil edir. Nə qədər çox belə toplantılar təşkil etsək, təkcə Şərq ölkələrindən deyil, Qərb ölkələrindən də nümayəndələr dəvət etməklə bu forumu gələcəkdə də bir növ brendə çevirə bilərik. Arzu edirəm ki, bu forum ənənəvi hal alsın. Elmi-tibbi fəaliyyətimdə də bu forumun müəyyən qədər izi oldu. Möhtəşəm təşkilatçılıq üçün minnətdarlığımı bildirirəm.

Planlarımız gələcəkdə Naxçıvanda tibbi aksiyalar keçirmək, vaxtaşırı aztəminatlı ailələrə təmənnasız xidmətlər göstərməkdir və bunu həyata keçirəcəyimizə inanıram.

**Gülcamal TAHİROVA**
**Güntac ŞAHMƏMMƏDLİ**
**Telli MƏMMƏDOVA**
**Ramiyyə ƏKBƏROVA**

## Forumun bağlanış mərasimi keçirilib







İyunun 20-də “Duzdağ” otelində I Beynəlxalq Tibbi Forumun bağlanış mərasimi təşkil edilib. Bağlanışda qonaqların muxtar respublika və forum haqqındakı təəssüratları dinlənilib. Çıxışlarda forumun elmi-tarixi əhəmiyyətindən, yüksək təşkilatçılıq səviyyəsindən, gələcək elm-tədris-yönümlü tərəfdaşlıqların təməlinin qoyulmasından, aktual elmi mövzularda müzakirə və təcrübə mübadiləsindən bəhs olunub. Qonaqlar Naxçıvan haqqında, qonaqpərvərliklə qarşılanmalarından da yüksək təəssüratla danışıblar.

Sonra iştirakçı cəmiyyət sədrlərinə, fəxri qonaqlara plaketlər təqdim olunub. Bölmələr üzrə ən yaxşı təqdimatlara diplom və plaketlər verilib. Tədbirdə Naxçıvan Musiqi Kollecinin “Gənclik” İnstrumental Ansamblının ifasında musiqi nömrələri, kollecin Xoreoqrafiya ixtisası tələbələrinin rəqsləri alqışlarla qarşılanıb. Rəngarəng konsert proqramı forumun bağlanış tədbirinə bayram təntənəsi bəxş edib.

**Xəbərlər şöbəsi**

## Meyvə və tərəvəz məhsullarının soyuducu anbarlara tədarükü ilə bağlı elan

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırır ki, tələbatdan artıq istehsal etdikləri meyvə və tərəvəz məhsullarını soyuducu anbarlara sata və ya icarə əsasında saxlaya bilərlər. Məhsulların tədarükünə 15 iyul 2022-ci il tarixdən başlanılacaq və dəyəri "Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi" və "Araz-3" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən nağd formada ödənilməklə aşağıdakı qiymətlərlə qəbul olunacaqdır:

| S/S | Məhsulun adı | Ölçü vahidi | 2022-ci il üçün nəzərdə tutulan qiymət |
|---|---|---|---|
| 1.1 | Kartof I növ | kiloqram | 40 qəpik |
| 1.2 | Kartof II növ | kiloqram | 25 qəpik |
| 1.3 | Kartof I və II növ (50%-50%) qarışıq | kiloqram | 30 qəpik |
| 2.1 | Soğan I növ | kiloqram | 40 qəpik |
| 2.2 | Soğan II növ | kiloqram | 25 qəpik |
| 2.3 | Soğan I və II növ (50%-50%) qarışıq | kiloqram | 30 qəpik |
| 3.1 | Alma I növ | kiloqram | 90 qəpik |
| 3.2 | Alma II növ | kiloqram | 55 qəpik |
| 3.3 | Alma I və II növ (50%-50%) qarışıq | kiloqram | 65 qəpik |
| 4.1 | Kələm | kiloqram | 40 qəpik |
| 5.1 | Yağlılıq növü qarğıdalı | kiloqram | 50 qəpik |
| 6.1 | Yağlılıq növü günəbaxan | kiloqram | 1.20 qəpik |

Məlumat üçün bildirilir ki, məhsulların mövsümi istehsal dövründə daxili bazarın qorunması, istehsalçıların stimullaşdırılması və anbarların fəaliyyətinin tənzimlənməsi məqsədilə tədarük dövrü kartof məhsulu üzrə iyul ayının 15-dən və digər məhsullar üzrə isə məhsulların tam yetişmə dövrünə uyğun olaraq həyata keçiriləcəkdir.

Həmçinin istehsalçıların nəzərinə çatdırılır ki, aşağıdakı siyahıda qeyd olunmuş soyuducu anbarlara tələbatdan artıq istehsal etdikləri meyvə və tərəvəz məhsullarını sata və ya anbarların boş qalan həcmləri qədər məhsulların icarə əsasında saxlanılmasını həyata keçirə bilərlər.

| S/S | Müəssisənin adı | Ünvanı | Telefon nömrələri |
|---|---|---|---|
| 1. | "Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi" Tapdıq Quliyev | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | 050-275-91-71 |
| 2. | "Araz-3" MMC Səbuhi Seyidov | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | 060-342-60-60 |
| 3. | Naxçıvan "Avtoservis" MMC Əsədulla Zeynalov | Naxçıvan şəhəri, N.Tusi küçəsi | 051-786-04-04 |
| 4. | "Yusifoğlu" firması Yusif Quliyev | Şərur rayonu, Məmmədsabir kəndi | 070-222-13-67 |
| 5. | Fiziki şəxs Ramiz Həsənov | Şərur rayonu, Danyeri kəndi | 050-213-55-54 |
| 6. | Fiziki şəxs Gültəkin Əsədova | Şərur rayonu, Düdəngə kəndi | 050-668-63-42 |
| 7. | Fiziki şəxs Füzuli Məhərrəmov | Şərur rayonu, Yuxarı Aralıq kəndi | 070-314-13-72 |
| 8. | Fiziki şəxs Əhəd Camalov | Şərur rayonu, Yuxarı Aralıq kəndi | 070-930-09-79 |
| 9. | Fiziki şəxs Fəzail Ağayev | Şərur rayonu, Yuxarı Aralıq kəndi | 070-370-01-57 |
| 10. | Fiziki şəxs Elnur Seyidov | Şərur rayonu, Çərçiboğan kəndi | 060-312-20-01 |
| 11. | Fiziki şəxs Əfsər Məmmədov | Şərur rayonu, Çərçiboğan kəndi | 060-358-63-80 |
| 12. | Fiziki şəxs Yaqub Tağıyev | Şərur rayonu, Cəlilkənd kəndi | 050-329-29-30 |
| 13. | Fiziki şəxs Qəşəm Kərimov | Şərur rayonu, Qaraburc kəndi | 050-314-14-13 |
| 14. | Fiziki şəxs Vəli Zamanov | Şərur rayonu, Sərxanlı kəndi | 070-354-70-24 |
| 15. | Fiziki şəxs Qafar Zeynalov | Şərur rayonu, Cəlilkənd kəndi | 050-366-77-89 |
| 16. | Fiziki şəxs İbrahim Qasımov | Şərur rayonu, Püsyan kəndi | 050-314-14-21 |
| 17. | Fiziki şəxs Mürşid Həsənov | Şərur rayonu, Məmmədsabir kəndi | 050-321-41-11 |
| 18. | Fiziki şəxs İlhamVəliyev | Şərur rayonu, Yengicə kəndi | 050-649-22-00 |
| 19. | Fiziki şəxs Vaqif Seyidov | Şərur rayonu, Çərçiboğan kəndi | 050-358-82-89 |
| 20. | Fiziki şəxs Elçin Qasımov | Şərur rayonu, Zeyvə kəndi | 050-569-81-56 |
| 21. | Fiziki şəxs Əfrasiyab Qasımzadə | Şərur rayonu, Düdəngə kəndi | 070-222-37-36 |
| 22. | Fiziki şəxs Firdovsi Ağayev | Şərur rayonu, Kürçülü kəndi | 050-693-64-64 |
| 23. | Fiziki şəxs Mirabbas Seyidov | Şərur rayonu, İbadulla kəndi | 070-573-52-82 |
| 24. | Fiziki şəxs Mayis Məmmədov | Şərur rayonu, Dərvişlər kəndi | 060-503-01-02 |
| 25. | Fiziki şəxs Məhəmməd Tağıyev | Şərur rayonu, Cəlilkənd kəndi | 050-257-47-22 |
| 26. | Fiziki şəxs Elxan Cabbarov | Ordubad şəhəri, Şəhriyar qəsəbəsi | 050-383-70-89 |
| 27. | Fiziki şəxs Müsrzə Əliyev | Ordubad şəhəri, Novruz Rzayev küçəsi | 050-325-87-77 |
| 28. | Fiziki şəxs Səxavət Rzayev | Babək rayonu, Didivar kəndi | 050-587-23-00 |
| 29. | Fiziki şəxs Əli Əlixanlı | Kəngərli rayonu | 070-211-14-11 |
| 30. | Fiziki şəxs İlham Abdullayev | Sədərək rayonu, Sədərək kəndi | 070-871-86-06 |

Əlavə məlumat üçün İqtisadiyyat Nazirliyinin aşağıdakı nömrələri ilə əlaqə saxlaya bilərsiniz (Tel: 544-50-03, 545-75-77 )

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi***

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 21 iyun-21 iyul 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 90 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat 9[00]-dan 12[30]-dək və 14[00]-dan 17[30]-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Müsabiqədə magistr təhsilini başa vurmuş və ya magistraturanın ikinci kursunda təhsil alan şəxslərin iştirakı məqsədəuyğundur.

Həqiqi hərbi xidmət keçməmiş şəxslər (qadınlar və səhhəti ilə əlaqədar möhlət hüququ olanlar istisna olmaqla) müsabiqəyə buraxılmır.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət İmtahan Mərkəzinin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Struktur bölmə | Ştat sayı | Vəzifə |
|---|---|---|---|
| | **1. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu** | | |
| 511004 | Qədim dövr arxeologiyası şöbəsi | 1 | böyük laborant |
| 511014 | Yeni və ən yeni tarix şöbəsi | 1 | böyük laborant |
| 511024 | Etnoqrafiya şöbəsi | 1 | böyük laborant |
| 511034 | Qafqaz tarixi şöbəsi | 1 | böyük laborant |
| 511044 | Antik və orta əsrlər arxeologiyası şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **5** | |
| | **2. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu** | | |
| 512004 | Musiqi və teatr şöbəsi | 1 | böyük laborant |
| 512024 | Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsi | 1 | böyük laborant |
| 512034 | Folklorşünaslıq şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **3** | |
| | **3. Bioresurslar İnstitutu** | | |
| 513004 | Dənli, paxlalı və texniki bitkilər laboratoriyası | 1 | böyük laborant |
| 513014 | Meyvə, tərəvəz və üzümçülük laboratoriyası | 1 | böyük laborant |
| 513024 | Nəbatat şöbəsi | 1 | böyük laborant |
| 513034 | Bitki sistematikası şöbəsi | 1 | böyük laborant |
| 513044 | Biokimyəvi tədqiqatlar laboratoriyası | 1 | böyük laborant |
| 513054 | İnnovasiya və elmi-istehsalat şöbəsi | 1 | böyük laborant |
| 513056 | İnnovasiya və elmi-istehsalat şöbəsi | 1 | texnoloq |
| 513074 | Zooloji tədqiqatlar şöbəsi | 1 | böyük laborant |
| 513084 | Herbari fondu | 1 | böyük laborant |
| | **Cəmi:** | **9** | |
| | **4. Təbii Ehtiyatlar İnstitutu** | | |
| 514014 | Hidrogeologiya və mineral sular laboratoriyası | 1 | böyük laborant |
| 514024 | Coğrafiya şöbəsi | 1 | böyük laborant |
| 514034 | İqtisadiyyat şöbəsi | 1 | böyük laborant |
| 514044 | Fiziki tədqiqatlar laboratoriyası | 1 | böyük laborant |
| 514054 | Filiz və qeyri-filiz yataqları laboratoriyası | 1 | böyük laborant |
| 514064 | Geoekologiya və seysmologiya laboratoriyası | 1 | böyük laborant |
| | **Cəmi:** | **6** | |
| | **5. Batabat Astrofizika Rəsədxanası** | | |
| 515004 | Səma cisimlərinin mövqe müşahidələri şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **1** | |
| | **6. Əlyazmalar Fondu** | | |
| 516004 | Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsi | 1 | böyük laborant |
| 516014 | Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası laboratoriyası | 1 | böyük laborant |
| | **Cəmi:** | **2** | |
| | **Yekun:** | **26** | |

## Muxtar respublikada dövlət icbari şəxsi sığortası üzrə ödənişlər həyata keçirilib



*Muxtar respublikada əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Müvafiq şəxslərə dövlət icbari şəxsi sığortasının vaxtında ödənilməsi də bu tədbirlərin davamıdır. Fond bu istiqamətdə deputatların, hərbi qulluqçuların, məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşlarının sosial rifahının yaxşılaşdırılması üçün müvafiq işlər görür. Belə ki, fond tərəfindən iyun ayında da dövlət icbari şəxsi sığorta ödənişini almaq hüququ yaranan şəxslərə ödənişlər həyata keçirilib və qanunla müəyyən edilmiş məbləğdə vəsaitlərin həmin şəxslərin bank hesabına köçürülməsi təmin edilib.*

Qeyd edək ki, sığortaolunanların qanunvericilikdə göstərilən səbəblərdən həlak olması, xəsarət alması və sağlamlıq imkanları məhdudluğunun müəyyən edilməsi sığorta hadisəsi hesab edilir. Sığorta hadisəsi baş verdikdə dövlət icbari şəxsi sığortası üzrə aidiyyəti şəxslərə sığorta ödənişi verilir. Deputatlara fərdi qəza zamanı, məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşlarına xidmətdə olduğu zaman, hərbi qulluqçulara isə hərbi xidmətdə olduğu zaman həlak olduqda, yaxud alınmış xəsarət və ya xəstəliklə əlaqədar üç il müddətində vəfat etdikdə 100 faiz həcmində sığorta ödənişi verilir. Həmçinin sığortaolunanlar sağlamlıq imkanları məhdudluğuna görə və aldığı xəsarət növlərinə uyğun olaraq qanunvericilikdə müəyyən olunmuş faiz miqdarında sığorta ödənişi ilə təmin edilirlər. Hərbi qulluqçulara ağır xəsarət aldıqda sığorta ödənişinin 25 faizi, az ağır xəsarət aldıqda 15 faizi, yüngül xəsarət aldıqda isə 5 faizi miqdarında, məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşlarına isə ağır xəsarət aldıqda 20 faiz, az ağır xəsarət aldıqda 15 faiz, yüngül xəsarət aldıqda isə 10 faiz miqdarında sığorta ödənişi verilir. Deputatlar, həmçinin məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşları 5 illik əməkhaqqı miqdarında sığorta olunur. Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası isə 11 min manat məbləğində həyata keçirilir.

Fond tərəfindən dövlət icbari şəxsi sığortası sahəsində aidiyyəti şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində işlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Taxıl məhsullarının qəbulu haqqında məlumat

"Gəmiqaya Taxıl Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti aşağıdakı qiymətlərlə məhsul qəbulunu həyata keçirir.

*1. Buğda – 0,55 AZN*
*2. Arpa – 0,45 AZN*
*3. Qarğıdalı – 0,45 AZN*

Qeyd: Təhvil verilən məhsulların dəyəri yerində ödənilir.

### *İtmişdir*

Naxçıvan şəhəri, M.Ə.Sabir küçəsi 89 ünvanda Məmmədov Məqatil Mənaf oğlunun adına olan 2110 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Mirzəmmədov Bəxtiyar Fərman oğlunun adına olan avtomobilin texniki pasportu və sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Məmmədov Muxtər İbrahim oğlunun adına oaln avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 555